Ədəbiyyat qəzeti

30 dekabr 2020-ci il 25

# Tofiq ƏBDÜLHƏSƏNLİ - 65



Tofiq Əbdüləziz oğlu Əbdülhəsənli 1955-ci il dekabrın 30-da Neftçala rayonu Pirəbbə kəndində anadan olub. 1972-1985-ci illərdə istehsalat yönümlü müəssisədə çalışıb. 1974-1976- ci illərdə hərbi xidmətdə olub. Azəraycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Azərbaycan Dövlət İqtisad Universitetinin maliyyə fakültəsinin məzunudur. Moskvada Ali Mətbuat İnstitutunda ixtisasartırma kurslarında təhsil alıb.

1980-ci illərin əvvəllərində mətbuat sahəsində çalışır. Bir müddət Azərbaycan Respublikasının Televiziya və Radio Verilişləri Komitəsinində iqtsiadi və ekoloji mövzularda verilişlər hazırlayıb. Tələbə həyatınına aid silsilə reportajlar müəllifidir. 1985-1990-cı illərdə "Gənclik" nəşriyyatının redaktoru işləyib. 1990-1992-ci illərdə Azərbaycan Ali Sovetinin orqanı olan "Həyat" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. Sonralar 1992-2002-ci illərdə Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində şöbə müdiri vəzifəsində çalışıb. 2003-2018-ci illərdə "Respublika" qəzetində şöbə müdiri olub. Ölkə iqtisadiyyatı, neft sənayesi, maşınqayırma və energetika kompleksi barədə silsilə məqalələr yazıb. Əsasən, yeni neft strategiyası, iqtisadi islahatlar mövzusunda analitik-iqtisadi məqalələr müəllifidir.

Tofiq Əbdülhəsənli Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiridir. Filologiya elmləri doktoru, professordur. Uzun illərdir ki, tələbələrə yazışma mədəniyyətimizin, dilimizin incəliklərini öyrədir. Ölkədə və xaricdə 150-dən çox elmi məqaləsi nüfuzlu elmi jurnallarda və məcmuələrdə dərc olunub. 25 Beynəlxalq elmi konfransda iştirak edib. 4 publisistik məqalələr toplusunun (kitabın), 5 dərsliyin, 4 dərs vəsaitinin, 4 monoqrafiyanın, 10 tədris proqramının müəllifidir.

40 illik pedoqoji stajı olan, filologiya elmləri doktoru, professor Tofiq Əbdülhəsənli Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin və Respublika İqtisadçılar İttifaqının üzvüdür. Ölkə Prezidenti İlham Əliyevin sərəncamları ilə Əməkdar Mədəniyyət işçisi və "Tərəqqi" medalına layiq görülüb. O həmçinin "Qızıl Qələm" və "Həsən bəy Zərdabi" mükafatları laureatıdır.

Həmkarımızı 65 illik yubileyi münasibəti ilə təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

*Azərbaycan Yazıçılar Birliyi*